**2026 – 2027-ci illər mövsümündə**

**(24 oktyabr 2026-cı il – 30 may 2027-ci il)**

**2013/2014-cü (U – 14) və 2015/2016-cı (U – 12) illər təvəllüdlü Oğlanlar və 2013/2014-cü (U-14) təvəllüdlü qızlar arasında “Azərbaycan Basketbol Liqası” U-14 və U – 12 çempionatının keçirilməsi haqqında**

# TEXNİKİ REQLAMENT

Azərbaycan Basketbol Federasiyası

**Bakı şəhəri 2026**

**1. "Azərbaycan Basketbol Liqası U-14 və U-12" məqsədlər (ABL U-14 və U-12)**

**1.1** Bu Reqlament çempionatda iştirak edən komandaların və tədbirə cəlb olunmuş digər şəxslərin hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir.

**1.2** Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə keçirilən "ABL U-14 və U - 12" liqaları aşağıdakı məqsədlər üçün keçirilir:

- Uşaq və gənclər arasında basketbolun təbliği və kütləviləşdirilməsi;
- Perspektivli basketbolçuların müəyyənləşdirilməsi;
- Yeniyetmə və gənclərdən ibarət yığma komandalara namizəd idmançların diqqət mərkəzində saxlanılması;
- Ehtiyat qüvvənin gücləndirilməsi.

**1.3** Liqa komandalarının fəaliyyətini birləşdirmək. "ABL U-14 və U - 12" Reqalamentinə uyğun Uşaq Gənclər Basketbol təşkilatlarının fəaliyyətlərini koordinasiya etmək.

**1.4** Yaş kateqoriyaları üzrə oğlanlar və qızlar arasında ölkənin ən güclü komandalarını və basketbolçularını müəyyən etmək;

**1.5** Azərbaycanda basketbolu təbliğ etmək, inkişaf etdirmək, daha çox yeniyetməni basketbol məşğələlərinə cəlb etmək.

**1.6** Uşaq və yeniyetmələrlə çalışan məşqçi müəllimlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif təlim- seminarlar təşkil etmək.

**1.7** Ölkədə daha çox uşaq basketbol klublarının yaranmasına və fəaliyyət göstərməsinə dəstək olmaq.

**2. YARIŞ İŞTİRAKÇILARI**

**2.1** Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə "Azərbaycan Basketbol Liqası" U14 qızlar liqası 2013-2014 təvəllüdlü həkim müayinəsindən keçirilmiş qızlardan ibarət komandalar iştirak edir.

**2.2** Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə "Azərbaycan Basketbol Liqası" U14 oğlanlar liqası 2013-2014 təvəllüdlü həkim müayinəsindən keçirilmiş oğlanlardan ibarət komandalar iştirak edir.

**2.3** Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə "Azərbaycan Basketbol Liqası" U12 oğlanlar liqası 2015-2016 təvəllüdlü həkim müayinəsindən keçirilmiş oğlanlardan ibarət komandalar iştirak edir.

**2.4** "Azərbaycan Basketbol Liqası" U-14 və U-12 liqalarında klublara və komandalara iştirak hüququnu Azərbaycan Basketbol Federasiyası verir.

**2.5** "Azərbaycan Basketbol Liqası" U-14 və U-12 liqalarında kişilər arasında XXXII ölkə çempionatında "Azərbaycan Basketbol Liqası 2026/2027" iştirak edən klubların 15(qızlar və oğlanlar) və 12 yaşa qədər oğlanlardan ibarət komandaları iştirak edir.

**2.6** Liqalara kişilər arasında XXXII ölkə çempionatında "Azərbaycan Basketbol

Liqası 2026/2027" iştirak edən klubların eyni adlı və liqalarda iştirak hüququ qazanmış digər komandalarının buraxılması nəzərdə tutulur.

**2.7** Liqa iştirakçılarını müəyyən etmək üçün mövsüm öncəsi təqdim olunmuş sənədlərin qəbulu komissiyası fəaliyyət göstərir.

**3. QEYDİYYAT QAYDALARI:**

**3.1** Sifariş vərəqələri Azərbaycan Basketbol Federasiyası tərəfindən təyin olunmuş qaydada ABL U-14 və U-12 liqalarının İdarə heyətinə 15 oktyabr 2026-cı il tarixində (saat 19:00-dək) təqdim olunmalıdır.

**3.2** Sifariş sənədləri təqdim olunduqdan sonra (liqa başladıqdan sonra) klub və ya komanda nümayəndələri təqdim olunan sifarişlərdə ABF-nın razılığı olmadan heç bir dəyişiklik edə bilməzlər.

**3.3.** Sifariş vərəqəsində adı göstərilməyən komanda üzvləri və digər rəsmi şəxslər oyunlar keçirilən zaman texniki zonaya buraxılmır.

**3.4. Qeydiyyat üçün aşağıdakı sənədlər tələb olunur:**

- üzərində klub rəhbərinin imzası və möhürü olan sifariş vərəqəsi, sifariş vərəqəsində komandanın əlaqələndirici şəxsinin mobil telefon nömrəsi va klubun e-mail ünvanı göstərilməlidir.
- qüvvədə olan şəxsiyyəti təsdiq edən sənədin (şəxsiyyət vəsiqəsi) sürəti (tələb olunarsa əsli)
- xarici dildə olan şəxsiyyəti təsdiq edən sənədin sürəti. (ehtiyac yaranarsa Azərbaycan dilində tərcüməsi notarial qaydada təsdiq edilmiş formada)
- xarici ölkə vətəndaşı olan oyunçu üçün Azərbaycan Respublikası ərazisində yaşamaq haqqında icazə sənədi və FIBA qaydalarına uyğun olaraq Letter of Clearance (LOC) sənədi.

Sənədlər ABL U-14 və U-12 liqaları İdarə heyətinə təqdim olunmalıdır. Əks halda qeyd olunan sənədləri təqdim etməyən komanda - mövcud qaydalara uyğun cəzalandırılacaqdır.

**3.5.** Azərbaycan Respublikasında yaşayan və qanunvericiliyə uyğun olaraq qüvvədə olan müvəqqəti və ya daimi yaşamaq icazəsinə malik xarici ölkə vətəndaşları uşaqların ABF tərəfindən təşkil edilən bütün aşağı yaş qrupları üzrə liqalarda iştirakına icazə verilir. Hər bir komanda müvafiq yaş kateqoriyası üzrə heyətində maksimum 1 (bir) xarici ölkə vətəndaşı olan oyunçunu qeydiyyatdan keçirə və onu oyun protokoluna daxil edə bilər.

Xarici ölkə vətəndaşı olan oyunçunun qeydiyyata alınması və yarışlarda iştirak etməsi üçün FIBA qaydalarına uyğun olaraq Letter of Clearance (LOC) sənədinin alınması məcburidir. LOC sənədi alınmadan oyunçunun qeydiyyatı təsdiqlənmir və onun rəsmi oyunlarda iştirakına icazə verilmir.

Oyunçunun Azərbaycan Respublikası ərazisində yaşamaq üçün qüvvədə olan icazə sənədi və LOC arayışı qeydiyyat zamanı Azərbaycan Basketbol Federasiyasına təqdim edilməlidir.

**3.6.** 3.4. maddəsində göstərilən sənədlər təqdim edildikdən sonra ABL U-14 və U-12 hər

bir iştirakçıya Liqa iştirakçısının nömrəsini (yarış lisenziyası) verir. Liqa iştirakçısının nömrəsi mövsüm ərzində etibarlıdır.

**3.7.** Məşqçilər: ABL U-14 və U-12 Liqasında 2026/2027 mövsümündə yalnız ABF lisenziyası olan məşqçilər Baş məşqçi və məşqçi köməkçisi kimi fəaliyyət göstərə bilər.

**3.8.** "ABL U-14 və U-12" liqasında məşqçilik fəaliyyəti Azərbaycan Basketbol Federasiyasının 2026/2027-ci illər mövsümü üçün tərtib edilmiş "Məşqçi fəaliyyəti üçün təlimat" –a uyğun tənzimlənir.

## 4. BASKETBOLÇULARIN DOĞUM TARİXLƏRİ VƏ LİQALARDAKI İŞTİRAKI

**4.1**. ABL U-14 liqasında yaşı 14-ə qədər olan qızlardan və oğlanlardan ibarət komandalar iştirak edir (doğum tarixi 01.01.2013 – cü ildən başlayan təvəllüdlər).

**4.2.** ABL U-12 liqasında yaşı 12-ə qədər olan oğlanlardan ibarət komandalar iştirak edir (doğum tarixi 01.01.2015 – ci ildən başlayan təvəllüdlər).

## 5. KLUB VƏ KOMANDA TƏRƏFİNDƏN TƏQDİM OLUNMUŞ BASKETBOLÇULARIN SAXTA SƏNƏDLƏRİ:

**5.1.** ABL U-14 və U-12 çempionatı ərzində aşağıda göstərilən hallar sənədlərin saxtalaşdırılması kimi qəbul olunur:

a) Sifaris zamanı təqdim olunan saxta ola biləcək sənədlər (məlumatlar):

- Doğum haqqında şəadətnamə
- Şəxsiyyət vəsiqəsi
- Ümumvətəndaş pasportu
- Tibbi arayış
- Məktəbdən arayışı (şəkilli)
- Sifariş vərəqəsi və s.

b) Bir basketbolçunun digər basketbolçuya məxsus olan sənəd ilə oyundan öncə, oyun zamanı, fasilədə oyuna buraxılma cəhdi və ya iştirakı;

c) Saxta sənədli basketbolçunu oyundan öncə, oyun zamanı, fasilədə oyuna buraxılma cəhdi və ya iştirakı.

**5.2.** 5.1. maddəsində göstərilən hallar aşkarlanarsa, ABL U-14 U-12 liqaları idarə heyəti tərəfindən bu cəzalar tətbiq oluna bilər:

a) Basketbolçunun iştirak etdiyi bütün oyunların nəticələrinin ləğvi (texniki məğlubiyyət);

b) Basketbolçunun yarışlardan kənarlaşdırılması;

c) Məşqçi haqqında inzibati cəza növlərinin tətbiqi;

d) Kluba və ya təmsil etdiyi quruma xabərdarlıq məktubunun göndərilməsi.

Azərbaycan Basketbol Federasiyası

## 6. İŞTİRAKÇI KOMANDANIN ÖHDƏLİKLƏRİ

**6.1.** İştirakçı klub və ya komandalar bu Reqlamentin tələblərinə riayət etməlidirlər.
**6.2.** İştirakçı klublar va ya komandalar FİBA tərəfindən təsdiq olunmuş Fair Play prinsiplərinə riayət etməlidirlər.
**6.3.** Klubları va komandaları təmsil edən hər hansı bir şəxsin (basketbolçular, rəsmi şəxslər, azarkeşlər vo s.) davranışına görə klublar və komandalar məsuliyyət daşıyır.
**6.4.** Klubları va komandaları təmsil edən rəsmi şəxslər, idmançılar və digər personal oyundan öncə, oyun zamanı, fasilədə və oyundan sonra yarış iştirakçılarına qarşı şiddət göstərməsi qəti surətdə qadağandır.

## 7. OYUN FORMASI İLƏ BAĞLI QAYDALAR:

**7.1.** Qarşılaşan komandaların forma rəngləri eyni olduqda, protokolda nominal qonaq qismində qeyd olunmuş komandaya üstünlük veriləcəkdir.
**7.2.** Basketbolçunun oyun formasının köynəyinin arxasında oyun nömrəsi olmalıdır. Nömrə formadan tam seçilməlidir.
**7.3.** Hər bir komandanın liqada iştirak etdiyi müddətdə 2 (iki) müxtəlif rəngli oyun formasının olması zəruridir.
**7.4.** Oyun zamanı oyunçuların üzərində qolbağ, saat, sırğa, zəncir va ya başqa zədə yetirə biləcək əşyalar olmamalıdır.

## 8. YARIŞIN İŞTİRAKÇI KOMANDALARI VƏ KEÇİRİLMƏ SİSTEMİ

**8.1. İştirakçı komandalar: ABL U – 14 Qızlar**

1. **SABAH U14**
2. **ORDU U14**
3. **NTD U14**
4. **LANDAU U14**
5. **NEFTÇİ U14**
6. **GƏNCƏ U14**
7. **NAXÇIVAN U14**
8. **SUMQAYIT U14**

**8.2.** ABL U-14 qızlar liqasında 8 komanda 2 dövrədə (14 tur) bir-biri ilə qarşılaşırlar. 14 turun yekununda liqada ən çox xal toplamış 6 komanda Play-off mərhələsinə vəsiqə qazanır. Liqada 1-ci və 2-ci yeri tutmuş komandalar bir başa 2/1 finala vəsiqə qazanır. 3-6 yeri tutmuş komandalar isə 4/1 finalda mübarizəni davam etdirir.4/1 finalda liqada 3-cü yeri tutmuş komanda ilə 6-cı yeri tutmuş komanda, 4-cü yeri tutmuş komanda ilə 5-ci yeri tutmuş komanda qarşılaşır. 4/1 final oyunlarında qalib gəlmiş komandalar yarımfinala yüksəlir. Yarımfinal mərhələsində liqanı 1-ci yerdə bitirmiş komanda 4/1 finalda 4-5 oyununun qalibi ilə, 2-ci yerdə bitirmiş komanda isə 3-6 oyununun qalibi ilə qarşılaşırlar.

yarımfinalda məğlub olmuş komandalar 3-cü yer uğrunda, qalib gəlmiş komandalar isə finalda qarşılaşırlar.

**8.3. İştirakçı komandalar: ABL U – 14 Oğlanlar**

1. **SABAH U-14**
2. **ŞƏKİ U-14**
3. **NTD U-14**
4. **LANDAU U-14**
5. **NEFTÇİ U-14**
6. **GƏNCƏ U-14**
7. **NAXÇIVAN U-14**
8. **SUMQAYIT U-14**
9. **ORDU U-14**
10. **LƏNKƏRAN U-14**

**8.4. İştirakçı komandalar: ABL U – 12 Oğlanlar**

1. **SABAH U-12**
2. **ŞƏKİ U-12**
3. **NTD U-12**
4. **LANDAU U-12**
5. **NEFTÇİ U-12**
6. **GƏNCƏ U-12**
7. **NAXÇIVAN U-12**
8. **SUMQAYIT U-12**
9. **ORDU U-12**
10. **LƏNKƏRAN U-12**

**8.5. Birinci mərhələdə, oğlanlar:** Hər iki liqada müntəzəm birincilikdə komandalar dairəvi sistem üzrə 2 (iki) dövrədə (cəmi – 18 tur) mübarizə aparacaqlar. 18 turun yekun nəticələrinə görə liqada ilk 8 (səkkiz) yeri tutan komanda 2-ci mərhələyə (play-off) yüksəlir.

**8.6. 2-ci** mərhələdə: (play-off) 4/1 oyunlarında müntəzəm birincilikdə: 1-ci yeri tutmuş komanda 8-ci yeru tutmuş komanda ilə, 2-ci yeri tutmuş komanda 7-ci yeri tutmuş komanda ilə, 3-cü yeri tutmuş komanda 6-cı yeri tutmuş komanda ilə, 4-cü yeri tutmuş komanda 5-ci yeri tutmuş komanda ilə qarşılaşır.

**8.7. 4/1 final** oyunlarının qalibləri: yarımfinalda 1-8 cütünün qalibi 4-5 cütünün qalibi ilə 2-7 cütünün qalibi 3-6 cütünün qalibi ilə qarşılaşacaqlar.

**8.8. Yarımfinal** oyunlarında məğlub olmuş komandalar 3-cü yer uğrunda oyunda, qalib gəlmiş komandalar isə final oyununda qarşılaşır.

## 9.Play-off mərhələsi




**9.1.Liqada yerlərin müəyyən olunması:**

• Komandaların müntəzəm birincilikdə tutduğu yerlər toplanılmış xallara görə müəyyən olunur.

• Qələbəyə görə 2 (iki) xal, məğlubiyyətə görə 1 (bir) xal verilir. Oyuna çıxmadığına görə 0 (sıfır) xal verilir. Oyunçu azlığına görə texniki məğlubiyyətə uğrayan komandaya 1 (bir) xal verilir.

• Komandanın xalları bərabər olarsa, turnir cədvəlindəki sıralama aşağıdakı göstəricilərə görə müəyyən olunur:

- Komandaların öz aralarında keçirdikləri oyunun nəticəsinə əsasən
- Bütün oyunlarda atılmış və buraxılmış topların fərqinə görə
- Bütün oyunlarda atılmış topların sayına görə
- Komandaların qələbə saylarına görə
- Texniki məğlubiyyəti olan komanda xal bərabərliyində müsabiqədən kənarlaşdırılır

**9.2.** ABL U-14 və U-12 liqarının oyun təqvimi Liqanın idara heyəti üzvləri tərəfindən hazırlanır va təsdiq edilməsi üçün ABL U-14 və U-12 liqarının idarə heyətinin iclasına təqdim olunur

**9.3.** ABL U-14 və U-12 liqarının oyunları həftənin bütün günlərində oynanıla bilər. Oyunların keçirilməsi üçün üstünlük əksər hallarda şənbə və bazar günlərinə verilir.

**9.4.** Üzürlü səbəblərə göra çempionat oyunlarının tarixi, yeri və vaxtı dəyişdirilə bilər.

**9.5.** ABL U-14 və U-12 liqarının oyunlarının keçirilmə vaxtı ABL U-14 və U-12 liqarının İdman direktoru tərəfindən müəyyən edilir və təsdiqlənir.

**9.6.** Oyunların tarixi, başlama vaxtı və ya keçirilmə yeri dəyişə bilər.

**9.7.** Çempionatın təşkilatçısı çempionat iştirakçılarını öncədən məlumatlandırmaqla oyunun keçirilmə yerini, tarixini və vaxtını dəyişə bilər.

**9.8.** ABL U-14 və U-12 liqarının təşkilatçısı oyun vaxtının dəyişdirilməsinə icazə verməyə bilər. O halda ki dəyişiklik digər çempionat iştirakçılarının manafeyinə ziddir.
**9.9.** Bu Reqlamentdə əksini tapmayan səbəblərdən liqanın təşkilatçısı idarə heyəti üzvlərini məlumatlandırmaqla oyunun vaxtını dəyişə bilər.

**9. MEYDANÇA**
**9.1.** Oyunlar ABF tərəfindən təsdiq edilmiş meydançalarda keçirilir.
**9.2.** Meydançanın ölçüləri (uzunluğu 28 və ya 26 m., eni-15 m.).
**9.3.** Meydançada iki səbət olmalıdır.

**10. OYUNUN TƏŞKİLİ**
**10.1.** Komandalar oyunun başlanmasına ən azı 30 dəqiqə qalmış oyun keçirilən yerə gəlməlidirlər. Oyunun başlanmasına 15 dəqiqə qalmış oyunun protokoluna nömrələri göstərilməklə oyunçuların adları va soyadları daxil edilməlidir. Sifarişlər baş hakimə təqdim edilməlidir. Oyundan əvvəl sifarişlər oyunun hakiminə təqdim edilmədiyi halda hakim oyunu başlamamalıdır.

**11. OYUN QAYDALARI**
**11.1.** Bütün oyunlar FİBA oyun Qaydalarına uyğun keçirilir.
**11.2.** " ABL U-14 və U-12" oyunlarıda zona müdafiəsindən istifadə qadağandır.
**11.3.** " ABL U-14 dörd hissədən ibarətdir. Hər hissə 10 dəqiqə, hissələrarası fasilə isə 2 (iki) və 10 (on) dəqiqədir.
**11.4.** " ABL U-14 " liqasInda komandalara 24 saniyə hücum vaxtı verilir, öz yarım-hissəsindən topu öz yarım hissəyə keçirmək üçün komandaya maksimum 8 saniyə vaxt verilir. "ABL U-12" liqasında komandaya öz yarım hissəsindən ön yarımhissəyə keçid üçün 10 saniyə, ön yarım hissəyə keçdikdən sonra 24 saniyə hücum vaxtı verilir.
**11.5.** "ABL U-14" liqasında cərimə atışları zamanı atışdan əvvəl və atış edildikdən sonra cərimə xəttini keçmək və ya tapdalamaq səhv kimi dəyərləndirilir. "ABL U-12" liqasında cərimə atışları atılmazdan əvvəl oyunçu mütləq xəttin arxasında dayanmalıdır. Atış edildikdən sonra xətti tapdalamaq və ya xətti keçmək səhv kimi dəyərləndirilmir.
**11.6.** "ABL U12" liqasında oyunlar dörd hissədən ibarətdir. Hər hissə 8 dəqiqə, hissələrarası fasilə isə 2 (iki) və 10 (on) dəqiqədir.
**11.7.** "ABL U-12" liqasında hər hissədə 4-cü dəqiqənin tamamında komandalara təşkilatçılar tərəfindən əlavə time out verilir. Oyunun 1-ci və 2-ci hissələrində (ilk yarıda) komandalara hər hissədə yalnız 1(bir) time-out hüququ verilir.
**11.8.** Oyunlarda əvəzetmə, oyunun protokolunda adları göstərilmiş basketbolçularla həyata keçirilir. Əvvəlcə protokola meydan sahibi olan komandanın siyahısı doldurulur. Oyunun protokoluna 12 (on iki) basketbolçunun adı qeyd olunur.
**11.9.** Yalnız 2 (iki) rəsmi şəxs (Baş məşqçi və məşqçi köməkçisi) və 7 (yeddi) basketbolçunun ehtiyat skamyalarında əyləşməsinə icazə verilir.

**11.10.** U-14 (oğlanlar) liqası oyunlarında №7 topdan istifadə olunur.

**11.10.1.** U-14 (qızlar) və U-12 liqası oyunlarında №6 topdan istifadə olunur.

**11.11.** U-12 liqasında oyunda lx1 üslubda meydan boyu pressinqə icazə verilir. İkili pressinq qadağandır. Bir komandanın digər komanda üzərində 30 xaldan artıq üstünlüyü yaranarsa bu zaman pressinq dayandırılır.

**11.12.** U-12 liqasında oyunda toplu oyunçuya pərdə (pick in roll) tətbiq etmək qadağandır.

**11.13.** Foul qayda pozuntusu istisna olmaqla meydanın özünə aid hissəsində qayda pozuntusu nəticəsində müdafiədə olan komanda topu oyuna daxil etmə hüququ qazanarsa, o zaman hakimin işarəsini gözləmədən dərhal məhdudiyyət xəttləri arxasından topu oyuna daxil edə bilər. **(bu zaman oyun saatı dayanmır)**.

**11.14.** ABL bütün liqa oyunlarında komandalar yalnız şəxsi müdafiədən 1x1 istifadə edə bilər. Oyunda zona müdafiəsindən istifadə etmək qadağandır. Müdafiədə öz oyunçusunu təqib etməyən oyunçu, 3 (üç) saniyəli zonada mövge seçərək topa fokuslanarsa ilk olaraq komandanın məşqçisi texniki xəbərdarlıqla, növbəti belə hal baş verdikdə isə oyunçu özü texniki foul ilə cəzalandırılır.

## 12. OYUN ZAMANI BASKETBOLÇULARIN ƏVƏZLƏNMƏSİ

**12.1.** ABL U-12 Oyunun ilk 8 dəqiqəlik dörddəbir hissəsində beş nəfər oyunçu oynayır, 2-ci dörddəbir hissədə oynamayan digər beş oyunçu oynayır. Birinci və ikinci hissələrdə oyunçu dəyişikliyinə icazə verilmir. 3-cü və 4-cü dörddəbir hissələrdə məşqçilər oyunçularını istədikləri formada oynada bilərlər. Birinci və ikinci hissələrdə yalnız zədə olduğu və zədələnən oyunçu oyunu davam etdirə bilmədiyi halda oyunçu dəyişikliyinə icazə verilir. Bu hal baş verərsə, o zaman rəqib komandayada 1 (bir) oyunçu dəyişikliyinə icazə verilir.

**12.2.** Meydançaya daxil olmağa hazarlaşan oyunçu hakim masasına yaxınlaşmalıdır (hakim masasının yanında olan ehtiyat oyunçunun dəyişdirilməsi üçün nəzərdə tutulmuş oturacaqda əyləşməlidir).

**12.3.** Komandaların 11-ci və 12-ci oyunçuları oyun ərzində ən azı 2 (iki) dəqiqə meydanda olmalıdır.

**12.4.** Play-Off mərhələsində komandanın heyətində 2012-ci il təvəllüdlü oyunçu meydançada yalnız 20 dəqiqə vaxt keçirə bilər.

**12.5.** Meydançaya daxil olmağa hazarlaşan oyunçu hakim masasına yaxınlaşmalıdır (hakim masasının yanında olan ehtiyat oyunçunun dəyişdirilməsi üçün nəzərdə tutulmuş oturacaqda əyləşməlidir).

**12.6.** Komandaların 11-ci və 12-ci oyunçuları oyun ərzində ən azı 2 (iki) dəqiqə meydanda olmalıdır.

## 13. OYUNUN PROTOKOLU

**13.1.** Oyundan öncə oyunun protokolu hakim-katib tərəfindən yazılmalıdır.

**13.2.** Protokolda basketbolçunun adı, soyadı, va formasında əks olunmuş nömrəsi göstərilməlidir. Həmçinin oyun zamanı ehtiyat oyunçular skamyasında şəxslərin adı, soyadı va vəzifəsi yazılmalıdır. Oyun protokolu hər iki komandanın rəsmi şəxsləri tərəfindən imzalanmalıdır.

**13.3.** Oyunun baş tutması üçün komandalar meydançada tam heyətlə olmalıdırlar.

**13.4.** Liqalarda komandalar hər bir oyuna 10 (on) oyunçudan az olmamaqla sifariş olunmalıdırlar.

**13.5.** Liqalarda oyuna hazır 10 (on) oyunçunu meydana çıxara bilməyən komandaya "texniki məğlubiyyət" verilir. Heyətlə bağlı "texniki məğlubiyyətə" görə "bir" xal verilir.

**13.6.** Oyunlarda minimum 10 (on) oyunçu tələbi qızlar liqasına şamil olunmur.

**13.7.** Oyundan sonra baş hakim protokolu imzaladıqdan sonra hər iki komandaya protokolun sürəti verilməlidir.

## 14. OYUNLARDA İŞTİRAKDAN İMTİNA VƏ OYUNLARIN DAYANDIRILMASI

**14.1.** Əgər komanda oyunda iştirak etməkdən imtina edərsə texniki məğlubiyyət verilir.

**14.2.** Komanda 2 (iki) dəfə oyuna çıxmaqdan imtina edərsə yarışlardan kənarlaşdırılır.

**14.3.** Yarışlardan kənarlaşdırılmış komandanın məşqçiləri növbəti mövsümdə ABF bayrağı altında keçirilən heç bir yarışa buraxılmır. Komandanın kənarlaşdırılmasında təqsirkar şəxslərə qarşı Nizam-İntizam Komissiyası tərəfindən sanksiyalar tətbiq olunur.

## 15. HAKİMLİK VƏ İNSPEKSİYA

**15.1.** " ABL U-14 və U-12" oyunlarını ABF tərəfindən lisenziya verilmiş hakimlər idarə edir və hakimlik FİBA qaydaları əsasında həyata keçirilir. " ABL U-14 və U-12" bir oyunu 5 (beş) nəfərdən ibarət hakim heyəti idarə edir.

**15.2.** Liqanın İdman direktoru oyunların başlanmasından 60 (altmış) dəqiqə öncə gəlib, meydançanın oyuna hazırlıq vəziyyətini yoxlamalıdır.

**15.3.** Protokollar oyundan 20 (iyirmi) dəqiqə əvvəl tərtib edilməli və yarışlar başa çatdıqdan sonra hesabat " ABL U-14 və U-12"-nin İdarə heyətinə təqdim olunmalıdır.

**15.4.** Hakim oyunun protokoluna adı daxil edilmiş basketbolçuların sənədlərini mütləq yoxlamalıdır. Oyuna sifariş edilmiş basketbolçuların və iştirakçıların sənədləri zərurət olduqda oyunun sonunadək liqanın İdman direktorunda qala bilər.

**15.5.** Komandalar tərəfindən hakimlərin dəyişdirilməsi ilə əlaqədar xahis qəbul olunmur.

**15.6.** Təşkilatçı tərəfindən hakimlərin say tərkibi artırıla bilər.

## 16. İNTİZAM QƏRARLARI

**16.1.** İntizam qərarlarını " ABL U-14 və U-12" -nin İdarə heyəti qəbul edir. İntizam qərarları FİBA-nin mövcud Qaydalarına uyğun qəbul olunur, İdarə heyəti oyundan sonra baş verən insidentlərlə bağlı bütün qərarları " ABL U-14 və U-12" Reqlamentinin

tələblərinə uyğun qəbul edir.
**16.2.** İntizam qərarlarını Nizam-İntizam Komissiyası qəbul edir.
**16.3.** Nizam-İntizam Komisyasının tərkibi: ABL U-14 və U-12 direktoru, ABL U-14, U-14 və U-12 İdman direktoru və ABL U-14 və U-12 məsul katibindən ibarətdir.

## 17. ETİRAZ ETMƏ HÜQUQU:

**17.1**. Oyunun nəticəsindən narazı olan və etiraz edən baş məşqçi oyundan dərhal sonra bu barədə hakimi xəbərdar etməlidir. Etiraz etmək üçün komanda 100 AZN ( yüz manat) depozit qoymalıdır. Komanda etiraz zamanı haqlı çıxarsa depozit geri qaytarılır, əks halda depozit qaytarılmır. Etirazın verilməsi oyunun protokolunda öz əksini tapmalıdır. Oyunun gedişində ciddi münaqişələr baş verərsə, oyunun hakimi " ABL U-14 və U-12"-nin İdarə heyətinə öz izahatını göndərməlidir.

Etiraz olduqda etiraz barədə oyun protokulunda təyin olunmuş vaxt ərzində (oyun başa çatdıqdan sonra 15 dəqiqə ərzində) qeyd aparılmalıdır. Etiraz edən komandanın baş məşqçisi 24 (iyirmi dörd) saat ərzində etirazın məzmunu haqqında " ABL U-14 və U-12"-nin İdarə heyətinə yazılı məruzə çatdırılmalıdır.
**17.2** Etirazlara aşağıdakı hallarda baxılmır:
- Hakimin səhvləri oyunun nəticəsinə təsir etmədikdə;
- Oyun ərzində xırda epizotik səhvlərə görə;
- Oyun protokolunda etiraz barədə qeyd təyin olunan vaxtdan gec edildikdə;
- Etiraz haqqında yazılı məruzə düzgün rəsmiləşdirilmədikdə.

## 18. MÜKAFATLANDIRMA
**18.1.** Liqada ilk 3 (üç) yeri tutan komandaların basketbolçuları və məşqçiləri müvafiq olaraq qızıl, gümüş və bürünc medallarla va diplomlarla təltif olunurlar.

## 19. İDMAN ZALI VƏ İŞTIRAKÇI KOMANDALARIN TƏMİNATI
**19.1.** Liqa ərzində ABF tərəfindən meydançalar aşağıdakı bəndlər üzrə təmin olunur.
a. Toplar
b. Səbətlər
c. Texniki ləvazimatlar

## 20. Himn
**20.1.** Himn yarış təşkilatçılarının təyin etdiyi vaxtlarda oyundan əvvəl səsləndirilir.

***<u>Qeyd</u>:*** Liqanın keçirildiyi müddətdə yarış iştirakçılarının təhlükəsizliyinə (davranışına) cavabdeh komandaların rəsmi (baş məşqçilər, məşqçilər və nümayəndələr) şəxsləridir.

Azərbaycan Basketbol Federasiyası

**Bu Reqlament Liqalarda iştirak etmək üçün rəsmi dəvət sənədidir.**

Liqada bir oyunda istirak edən komandanın tərkibi minimum 10 idmançıdan, 1 Baş məşqçidən (kateqoriyalı) və 1 məşqçi (kateqoriyalı) nümayəndədən ibarətdir.

Liqada iştirak edən komanda mövsüm ərzində maksimum 15 (on beş) idmançını sifariş edə bilər.

Bu Reqlamentin tələbləri mövsümün sonuna qədər qüvvədədir.

**Əlaqələndirici şəxs:**

Saibcanov Zərbəli: +994 (50) 300-01-46